

# 4 günlük Aprel Qələbəsindən 44 günlük tarixi Zəfərə

***2016**-cı ilin aprelində Azərbaycan Ordusunun bölmələri 23 illik gözlənti və həsrətə son qoyaraq xalqımıza unudulmaz bir Qələbə sevinci yaşatdı.*

Aprel ayının əvvəllərində düşmən yenidən təmas xəttində təxribatlara əl atdı, sərhədyanı kəndləri və dinc sakinləri hədəfə aldı, ölənlər və yaralananlar oldu. Düşmən təxribatı cavabsız qalmadı, ordumuzun bölmələri dərhal əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirdi. Dörd gün davam edən döyüşlərdə Azərbaycan Silahlı Qüvvələrinin bölmələri bir neçə strateji yüksəklikləri azad etdi, düşmənin canlı qüvvəsi və hərbi texnikası böyük itki verdi. Bu, Qələbəyə aparan yolun başlanğıcı oldu - Aprel döyüşləri Ordumuzun qələbə əzmini nümayiş etdirərək, tarixi an kimi yaddaşlara həkk olundu.

**(davamı 11-ci səhifədə)**

# 4 günlük Aprel Qələbəsindən 44 günlük tarixi Zəfərə






(əvvəli 1-ci səhifədə)

Şübhə yoxdur ki, şanlı Aprel döyüşləri Azərbaycanın hərb tarixində dönüş nöqtəsi oldu. Cəbhənin ən qaynar nöqtələri Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti idi. Burada igid Azərbaycan əsgərləri düşməni sarsıdaraq, mühüm strateji yüksəklikləri geri aldılar. Döyüş meydanında ən böyük uğurlardan biri Tərtər rayonunun Talış kəndi ətrafındakı mövqelərin işğaldan azad edilməsi idi. Bununla Naftalan şəhərinə yönəlmiş potensial təhlükə birdəfəlik aradan qaldırıldı. Digər bir istiqamətdə isə döyüşlərin taleyini dəyişən həlledici məqam yaşandı - Lələtəpə yüksəkliyi düşmən əsarətindən qurtuldu. Bu mövqenin ələ keçirilməsi Azərbaycan Ordusuna geniş əraziləri nəzarətdə saxlamaq imkanı yaratdı və düşmənin müdafiə xəttində böyük çatlar açdı. Bu döyüşlərdə Tərtər rayonunun Talış kəndi ətrafındakı adsız yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə zirvəsi, Cocuq Mərcanlı, Goranboyun Gülüstan kəndi və Suqovuşan istiqamətində mühüm strateji mövqelər azad edildi. Ermənistan illərlə qurduğu, "keçilməz" hesab etdiyi sədlərin arxasında gizlənirdi. Lakin Aprel döyüşləri göstərdi ki, Azərbaycan əsgərinin əzmi qarşısında heç bir sədd dayana bilməz. Qondarma "Ohanyan Səddi" darmadağın edildi, bu mif tarixin arxivinə basdırıldı.

Ağır döyüşlərdə düşmən ordusunun 30-dan çox tankı, 25-dən çox artilleriya qurğusu və çox sayda hərbi texnikası məhv edildi. Ermənistan ordusu 800-dən çox canlı qüvvə itirdi. Döyüş meydanı işğalçı qüvvələrin darmadağın edilmiş texnikası ilə dolu idi. Suqovuşanda yerləşən düşmən qərargahı və əsas hərbi hissələri yer üzündən silindi. Bununla da Ağdərə-Suqovuşan və Cəbrayıl istiqamətində yollar tam nəzarətə götürüldü. Azərbaycan Ordusunun bölmələrinin bir neçə saat ərzində geri aldığı mövqeləri ermənilər 3 gün fasiləsiz olaraq əks-hücuma keçsələr də, qaytara bilmədilər. Düşmən itirdikləri mövqeləri geri almaq məqsədilə aprelin 4-də yenidən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə hücum edərək bu istiqamətə əlavə qüvvələr cəlb etdi. Lakin düşmənin bütün həmlələrinin qarşısı qətiyyətlə alındı və geri çəkilməyə məcbur edildi. Döyüşlərin dayandırılması üçün beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrə müraciətlər edən Ermənistan məğlubiyyətin acısını daddı.

Xüsusi vurğulanmalıdır ki, Aprel döyüşləri hərbi qələbə, həm də həyatın, yurd həsrətinin yenidən dirçəlişi idi. Belə ki, Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi Cocuq Mərcanlıya yeni nəfəs verdi! 23 illik ayrılıqdan sonra kəndin fədakar sakinləri doğma yurdlarına geri döndü, evlərində ocaq qaladılar, torpaqlarına can verdilər. Bu qayıdış təkcə Cocuq Mərcanlı üçün deyil, bütün Azərbaycan üçün Qələbənin müjdəçisi oldu. Aprel Zəfəri nəticəsində minlərlə hektar torpaq tam nəzarətə götürüldü. İşğalın ədalətsiz qaranlığı çəkilməyə başladı, Qələbə yolu göründü. Cocuq Mərcanlıya qayıdan insanlar bilirdilər ki, bu, başlanğıcdır, bu torpaqlara "Böyük qayıdış"ın ilk addımıdır. Və tarixin gedişi onların bu inamını doğrultdu.

Aprel Zəfərimizin memarı, Ali Baş Komandan İlham Əliyev çevik və qətiyyətli həmlələrlə dünya ictimaiyyətinə qüdrətli Azərbaycan dövlətinin gücünü göstərdi. Düşmənin xain hücumundan sonra Prezident İlham Əliyev 2016-cı il aprelin 2-də Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasında çıxış etdi, önəmli mesajlar səsləndirdi: "Bununla bərabər, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər. Eyni zamanda, daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbəni qazandıq". Ölkə başçımız sözügedən ərəfədə erməni təxribatlarını, beynəlxalq ictimaiyyəti manipulyasiya cəhdlərini də bir-bir ifşa etdi. Hazırda "gorbagor" olmuş "status-kvo"nun qorunması üçün o dövrdə Ermənistanın konstruktiv danışıqlara xəyanəti, şərti sərhəddə təxribatlar törətməsi bir daha dünyanın diqqətinə çatdırıldı: "Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səylər ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin". Bu ifadələr 44 günlük Vətən müharibəsinin ilk anonsları idi. Hayların sülh yolundan imtina etməsi, aqressiv ritorika nümayiş etdirməsi gec-tez öz layiqli cavabını almalı idi.

Qeyd edək ki, Aprel döyüşlərində əldə olunan qələbə Azərbaycan Ordusunun ruhunu və inamını daha da gücləndirdi. Bu qələbənin yaratdığı döyüş əzmi cəmi iki il sonra - 2018-ci ilin mayında yeni bir tarixi zəfərlə davam etdi. Əlahiddə Ümumqoşun Ordunun Naxçıvanın Günnüt kəndini və ətraf əraziləri azad etməsi bir daha göstərdi ki, Azərbaycan əsgəri haqq savaşı uğrunda hər an döyüşə hazırdır və qarşıya qoyulan istənilən tapşırığı şərəflə yerinə yetirməyə qadirdir. Aprel döyüşləri həm də böyük bir dərs oldu. Düşmənin hərbi potensialı, müdafiə xətləri və zəif nöqtələri incələndi, bu bilgilər isə daha böyük savaşa - Vətən müharibəsinə gedən yolda mühüm rol oynadı. 2020-ci ilin sentyabrında başlayan 44 günlük müharibədə Azərbaycan Ordusunun bölmələri düşmənə sarsıdıcı zərbələr endirərək torpaqlarımızı işğaldan azad etdi və şanlı tarix yazdı.

Lakin zəfər yürüşü bununla bitmədi. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu suverenliyimizi tam bərpa etmək üçün cəmi bir gün davam edən lokal antiterror tədbirləri ilə separatizmin son izlərini də torpaqlarımızdan sildi. Beləcə, 2016-cı ilin Aprel döyüşlərindən başlanan zəfər yolu 2023-cü ildə tam və qəti Qələbə ilə taclandı. Bu yol xalqın iradəsi, əsgərin cəsarəti və haqqın zəfəri idi.

Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, xalqın iradəsini və işğalçılar üzərində qələbənin labüdlüyünü bir daha dünyaya nümayiş etdirdi. Bu, Böyük Zəfərə aparan yolun ilk böyük uğuru idi.

**Nurlan ABDALOV,**
**"Respublika".**